Bank Respublika
sizə faydalı

**18.12.2024-cü il tarixli Kompleks
Bank Xidməti Müqaviləsinə
2 saylı əlavə razılaşma**

1. 18.12.2024-cü il tarixli, https://www.bankrespublika.az/az/pages/kompleks-bank-xidmeti-muqavilesi_1310 internet saytında yerləşdirilən, Fiziki şəxslər və fərdi sahibkarlar üçün nəzərdə tutulan Kompleks Bank Xidməti Müqaviləsinə **(“Müqavilə”)** aşağıdakı qaydada dəyişiklik edilsin:

1.1. Müqavilənin 3.6.3-cü bəndi aşağıdakı redaksiyada oxunsun:
“Qeyri-rezident müştərinin cari hesabındakı qalıq vəsaitinin 10 (on) AZN-dən az olması şərtilə, bir il ərzində hesab üzrə heç bir əməliyyat aparılmadıqda;”

1.2. Müqaviləyə aşağıdakı redaksiyada 3.6-1 bəndi əlavə edilsin.
“Cari hesab üzrə sonuncu əməliyyat günündən bir təqvim ili ərzində Müştəri tərəfindən əməliyyat aparılmadıqda və ya dövriyyə edilmədikdə, həmin təqvim ili bitdiyi gündən sonrakı gün, cari hesab Bank tərəfindən birtərəfli qaydada bloklana bilər. Cari hesab bloklandığı halda, blokun açılması üçün Müştəri Banka gələrək hesabın blokdan açılması niyyətini bildirməlidir. Bankın səlahiyyətli nümayəndəsi tərəfindən Müştəri bank sistemində identifikasiya edildikdən sonra hesabın blokdan açılması icra edilir.”

1.3. Müqaviləyə aşağıdakı redaksiyada 3.6-1.1 bəndi əlavə edilsin:
“Bu müqavilənin 3.6-1 bəndinə əsasən bloklanmış hesabın açılması üçün hesab bloklandığı tarixdən fiziki şəxs olan Müştərinin 1 (bir) təqvim ili ərzində, hüquqi şəxs yaratmadan sahibkarlıq fəaliyyətini həyata keçirən fiziki şəxs olan Müştərinin isə 3 (üç) təqvim ili ərzində müraciəti olmadıqda, Bank həmin hesabı birtərəfli qaydada bağlaya bilər.”

2. Müqavilənin digər müddəaları dəyişdirilmədən saxlanılır.
3. Bu Əlavə razılaşma 15.09.2025-ci il tarixindən etibarən qüvvəyə minir.